AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
YANINDA DÖVLƏT İDARƏÇİLİK AKADEMİYASI

*Əlyazması hüququnda*

**PƏRVİZ HƏBİB OĞLU SƏMƏDOV**

# TÜRK DÜNYASININ İNTEQRASİYASINDA AZƏRBAYCAN-TÜRKİYƏ TƏRƏFDAŞLIĞININ ROLU

**İxtisas: 5901.01 – "Beynəlxalq münasibətlər"**

**Siyasi elmlər üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI – 2016**

İş Azərbaycan Bakı Dövlət Universitetinin "Diplomatiya və müasir inteqrasiya prosesləri" kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| **Elmi rəhbər:** | Tarix üzrə elmlər doktoru, professor<br>**Ə.İ.Muxtarova** |
| **Rəsmi opponentlər:** | Tarix üzrə elmlər doktoru, professor<br>**G.İ.İbrahimova** |
| | Siyasi elmlər üzrə fəlsəfə doktoru<br>**C.X.Cahangirli** |
| **Aparıcı təşkilat:** | AMEA-nın İnsan haqları və Hüquq İnstitutu |

Müdafiə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdindəki FD 02.101 Dissertasiya Şurasının "_28____"______10_____2016-cı il tarixli iclasında saat -da keçiriləcəkdir.

Ünvan: AZ 1001.Bakı şəhəri, M.Lermontov küçəsi, 74.

Dissertasiya ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat "____"__________2016-cı il tarixində göndərilmişdir.

**FD 02.101 Dissertasiya Şurasının Elmi katibi,**

**fəlsəfə üzrə fəlsəfə doktoru, dosent S.İ.Məmmədova**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Tədqiqat mövzusunun aktuallığı.** Qlobal və regional miqyaslarda Azərbaycan-Türkiyə münasibətləri bir-birini dəstəkləyəcək dostluq əlaqələri çərçivəsində qurulmuşdur. Elə tarixi-siyasi mövzular var ki, onların öyrənilməsi həmişə diqqət mərkəzində olur. Belə mövzulardan biri də "Türk dünyasının inteqrasiyasında Azərbaycan-Türkiyə tərəfdaşlığının rolu" mövzusudur. Bu inteqrasiya prosesinin Azərbaycanın xarici siyasət prioritetlərindən biri olması bu gün artıq heç kimdə şübhə doğurmur. Bütün dövrlərdə dəyişməyən strategiyaya sahib olan Azərbaycan müstəqilliyini əldə etdikdən sonra da öz konformist xarici siyasətinə sadiq qalmış, BMT-nin nizamnaməsinin 2-ci maddəsinin 4-cü bəndinə uyğun olaraq, bütün dövlətlərin ərazi bütövlüyü və müstəqilliyinə hörmətlə yanaşmışdır. Bu da dövlətimizin digər dövlətlərlə dost və tərəfdaş siyasətinə inkişafında mühüm rol oynamışdır. Bu strateji kurs milli diplomatiyanı, ölkənin dünyaya və Türk dünyasına inteqrasiyasını gücləndirir. Azərbaycanın Türkiyə ilə tərəfdaşlığına xüsusi əhəmiyyət verən Ümummilli lider Heydər Əliyev demişdir: "Türkiyə hazırda dünyanın siyasi durumunda nüfuzlu təsir qüvvəsinə malik, ümumbəşəri dəyərləri qorumaq əzmində olan, iqtisadi və mədəni səviyyəsi etibarilə inkişaf etmiş qüdrətli dövlətlərdən birinə çevrilmişdir. Atatürkün məşhur «Yurdda sülh, cahanda sülh» ideyasından doğan işığa doğru irəliləyən müasir Türkiyə dövlətinin yeritdiyi daxili və xarici siyasətin, sosial-iqtisadi və mədəni tərəqqi təcrübəsinin elmi-nəzəri tədqiqat obyektinə çevrilməsi, öyrənilməsi böyük əhəmiyyət kəsb edir"[1]Bu baxımdan Azərbaycan-Türkiyə tərəfdaşlığının sistemli və əhatəli öyrənilməsi mühüm əhəmiyyətə malikdir.

Tədqiqat mövzusunun aktuallığını konkret olaraq aşağıdakı müddəalarla ifadə etmək olar:

- Türkiyənin tutduğu mövqe Avropa dövlətlərinin xarici siyasətlərində ermənilərin işğalçılıq siyasətləri ilə bağlı prosesə beynəlxalq hüquqa uyğun yer ayırmasında mühüm rol oynadı. Yoxsa erməni diasporunun güclü olduğu dövlətlərdə Azərbaycanın təcavüzkar olması fikri özünə yer tapmışdı. İşğala uğrayan Azərbaycan həm Qərbdən, həm də Şərqdən, ABŞ və Rusiyanın da ikitərəfli haqsızlığı ilə üz-üzə qalmışdı. ABŞ tərəfindən "Azadlığı Dəstəkləmə Aktı", Rusiya tərəfindən isə "iqtisadi embarqo" ilə qarşılaşmışdır. Lakin dövlətin həyata keçirdiyi fəaliyyət və Türkiyənin də bu fəaliyyətə dəstək verməsi nəticəsində hadisə və proseslər bu siyasətin Avropa və ABŞ-ın geosiyasi maraqlarına heç də uyğun gəlmədiyini göstərdi. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin düzgün neft strategiyası burada xüsusi rol oynadı. Türkiyə də bundan yararlanaraq bölgədə gücünü artırdı.

Müasir dövrdə Azərbaycan-Türkiyə tərəfdaşlığının inkişafına dəyər verən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir: «Türkiyə-Azərbaycan əməkdaşlığı sadəcə dövlətlərimiz arasındakı güclü həmrəyliyə deyil, eyni zamanda, xalqlarımızın paylaşdığı köklü tarix və könül birliyinə söykənir. Türkiyə və Azərbaycan xalqları eyni dildə danışır, müştərək bir tarixi paylaşır. Türkiyə və Azərbaycan qarşılarına eyni coğrafiyada sülh, sabitlik və rifahın təmin edilməsi məqsədini qoymuşlar».[2]

---

[1]Əliyev H.,Müstəqilliyimiz əbədidir, Seçilmiş fikirlər, Bakı: "Azərnəşr", 1997, s.8
[2] http://www.president.az/articles/721

- Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsi prosesinin xüsusiyyəti ondan ibarətdir ki, bu proses hüquqi xarakterdən daha çox siyasi, iqtisadi xarakter daşıyır. Xəzərin beynəlxalq-hüquqi statusu problemi öz həllini hüquqi cəhətdən daha çox bu dövlətlərin razılaşdırılmış siyasi iradəsi ilə tapacaqdır. Türkiyəyə görə bu imkanlar baxımından Azərbaycan ilə əməkdaşlıq onun enerji asılılığına son qoya bilər. Bu sahədə görülən işlər hər iki tərəfin səyinin nəticəsidir. Azərbaycan-Türkiyə tərəfdaşlığı digər türk dövlətlərinə bir nümunədir.

-Azərbaycan-Türkiyə əlaqələri regional əməkdaşlıq üçün başlıca şərtdir. Bu əlaqələrin inkişafı türk dünyasının daha da sıx birləşməsi üçün həlledici rol oynayır. Hər iki dövlətin qarşı-qarşıya qaldığı separatçılıq bu əlaqəni şərtləndirir. Türkiyə Respublikası PKK terrorundan əziyyət çəkir. Həmçinin Ermənistanın rəsmi siyasətində Türkiyə ərazilərinə iddiaları və saxta soyqırımın tanınması mövcuddur. Halbuki bugünkü Ermənistan (əslində qədim Qərbi Azərbaycan) toponimik, etnoqrafik, arxeoloji, və.s faktlarla sübuta yetirilmişdir ki, Azərbaycan türklərinin ən qədim yaşayış yerlərindən biri olmuşdur. Bu faktorlar Türkiyənin Qafqaz siyasətinin formalaşmasında önəmli rol oynayır. Digər tərəfdən isə, bölgə ilə tarixi bağların olması, tarixi keçmişə söykənən əlaqələrin mövcudluğu Türkiyənin regiona olan maraqlarını labüd edir.

- Baxılan mövzunun aktuallığının bir səbəbi də inteqrasiyanın iqtisadi cəhətdən hər iki dövlətə verdiyi töhfələrdir. Türkiyə Cənubi Qafqazda reallaşan və reallaşmaqda olan bir sıra layihələrin iştirakçısıdır. Bakı- Tbilisi- Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars, NABUCCO (Xəzər bölgəsi və Orta Şərq təbii qaz ehtiyatlarını Avropa bazarlarına çatdırmağı nəzərdə tutan qaz kəməri layihəsi), TANAP (Trans Anadolu Təbii Qaz Boru xətti layihəsi) və s. layihələrin reallaşması həm Azərbaycan-Türkiyə, həm də digər dövlətlərin iqtisadi inkişafında da mühüm rol oynayır. Digər tərəfdən, sərbəst bazar iqtisadiyyatı dövründə iqtisadi əlaqələrin möhkəmlənməsi vacib və təqdirəlayiqdir.

Göründüyü kimi, türk dünyası inteqrasiyasında Azərbaycan və Türkiyə tərəfdaşlığının öyrənilməsi olduqca aktual bir məsələdir. Azərbaycanın dövlət maraqları baxımından da bu sahədə tədqiqatların aparılması xüsusi əhəmiyyət kəsb edir. Türk dünyasının inteqrasiyasında dövlətlər arasındakı tərəfdaşlığın öyrənilməsi onların uğradığı haqsızlıq və qarşılaşdıqları problemlərin ortaya çıxarılmasına kömək edər. Mövzu ilə bağlı tərəfdaşlığın belə aktuallığı bu sahədə kompleks tədqiqatların aparılmasına ciddi ehtiyacın olmasını şərtləndirmişdir.

**Problemin işlənmə dərəcəsi**. Türk dünyasının inteqrasiyasında Azərbaycan-Türkiyə tərəfdaşlığının rolu müxtəlif kontekstdə: siyasi, tarixi, mədəni və hüquqi aspektlərdə öyrənilsə də, bu problemin siyasi-diplomatik mahiyyəti hələ kompleks tədqiqat obyekti olmamışdır. Tarixçi və siyasətçilər, eləcə də hüquqşünas alimlər Azərbaycan-Türkiyə münasibətlərini araşdırsa da, iki dövlətin türk dünyası və dünya inteqrasiyasında bir-birinə verdiyi dəstəyi diplomatik konteksdə nəzərdən keçirməmişlər.

Türkiyə tədqiqatçılarının əsərlərində Türk dünyasındakı Azərbaycan-Türkiyə tərəfdaşlığını əks etdirən elmi-nəzəri məsələlərin mahiyyətinin açıqlanmasına cəhd edilmişdir. Məsələn, F.Sönməzoğlu Türk dünyası ilə əlaqədar tarixi, siyasi, iqtisadi şərtlərə əhatəli diqqət yetirir, V.Eroğlu Türk dünyasına qarşı aparılan mübarizədən geniş bəhs edir, M.Aydın Azərbaycan-Türkiyə əlaqələrinin xarici siyasət prioritetlərinə üstünlük verir, N.Özdemir Türk dünyasının inkişafında iqtisadi amilləri ön plana çəkir. F.Armaoğlu isə bu əlaqə və tərəfdaşlığın xüsusiyyətlərini analiz edir [3]

Türk dünyasınının inteqrasiyasında Azərbaycan və Türkiyənin ortaq problemlərini ortaya qoya bilmək üçün bu sahədəki materiallar araşdırılaraq , dünyada sülhə və əmin-amanlığa əngəl təşkil edən məsələlərin birlikdə həllinin vacibliyi öz əksini tapmışdır. S.Ruintən Azərbaycanın Türk dövlətləri ilə əlaqələr sisteminə əhatəli diqqət yetirir, Ə. Ələsgərli isə bu problemi erməni konteksində təhlil edir. E.Nəsirov Türkiyənin Cənubi Qafqazdakı maraqlarını ortaya qoyur. Z.Səmədli isə, müasir beynəlxalq münasibətlərdə Türk dövlətlərinin roluna diqqət çəkmiş, P.Bülbüloğlu Azərbaycan-Türkiyə əlaqələrində mədəni işbirliyinin vacibliyini açıqlamış, Ə.Həsənov Türkiyənin Xəzər- Qara dəniz hövzəsindəki təhlükəsizlik siyasətininin mahiyyətini üzə çıxarmışdır.[4]

---

[3] Sönmezoğlu F., Beynəlxalq siyasət və xarici siyasət analizi.İstanbul: "Filiz kitabevi yayınları", 2000, 885 s.; Eroğlu V., Erməni məzalimi, İstanbul: "Belge yayımı", 1995, 283 s; Aydın M.. Türk Xarici Siyasəti, cild II, Ankara:"İletişim yayınları", 2002, 900 s; Özdemir N., Türk dünyasının inlişafı baxımından türk ekonomisi və endüstrisi.// 21-ci Yüz ildə türk dünyası, 02-05 dekabr, "Ekoavrasiya Lefke yayını", 2010, 585 s; Armaoğlu F., 20-ci yüz il siyasi tarixi, Ankara, "Alkım yayını" , 1006 s.

[4] Ruintən S. Azərbaycan türk dövlətləri ilə siyasi əlaqələr sistemində. Bakı: Adiloğlu,2005, 212 s; Ruintən S. Ermənistan ictimaiyyəti Türkiyə-Ermənistan münasibətlərinin normallaşması haqqında // Tarix və onun problemləri, 2013, № 1, s. 123-127;Ələsgərli Ə. Gərgin gündəm: Türkiyə-Ermənistan sərhəd qapısı problemi. Stratejik analiz, sayı 109, May 2009; Nəsirov E.M. ABŞ və Türkiyənin Qafqaz geosiyasi regionunda strateji maraqları və Azərbaycan Respublikası. Bakı: Çıraq, 2006, 310 s. Bülbüloğlu P. Türk dünyasında mədəni işbirliyi. Avrasya etüdləri, 3. Sonbahar, Ankara 1996, s.504; Səmədli Z.V. Müasir beynəlxalq münasibətlərdə Türk dövlətlərinin rolu. Bakı: AR DİA, 2005, 160 s; strategiya.az. Türkiyənin Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın Təhlükəsizlik arxitekturasına yanaşması.13.01-06mart 2013 Professor Əli Həsənov

Türklərə qarşı erməni müəlliflərin tarixi və mifoloji uydurmaları, xüsusən dünyada türklərə qarşı mənfi imicin formalaşdırılmasına yönələn fikirlər və əsassız ərazi iddialarının mahiyyətinə aydınlıq gətirmək məqsədilə erməni yazıçıları Z.Korkodyanın, Y.A.Parsamyanın əsərlərindən istifadə edilərək, yalanların ifşası ortaya qoyulmuş, indiki Ermənistanın türklərin keçmiş yurdu olduğuna diqqət çəkilərək müxtəlif sübutlarla əsaslandırılmışdır. [5]Türk dünyası inteqrasiyasının Azərbaycan-Türkiyə tərəfdaşlığının tarixi kökləri və tədqiqata tətbiq edilməsi baxımından isə mühüm rolu və əhəmiyyətində M.Qasımlı, C.Həsənli, Ə.Muxtarova, Z.Əliyevin əsərləri elmi-tarixi əhəmiyyətə malikdir.[6]

Mövzunun öyrənilmə dərəcəsinə və ondan yararlanmaya verilən qısa icmal göstərir ki, ümumilikdə müasir beynəlxalq münasibətlərdə, Türk dünyası inteqrasiyasında Azərbaycan-Türkiyə tərəfdaşlığının rolu, bu rolun türk dünyasında nümunə təşkil etməsi baxımından əhəmiyyətini ortaya qoyur. Türk dünyasında strateji əməkdaşlığın, qarşılıqlı əlaqələrin, eləcə də beynəlxalq sistemdə tutduğu yerin, həmçinin, hərbi, sosial, siyasi, iqtisadi təşkilatlanmanın nizamlanma forma və metodları kimi məsələlər elmi-siyasi baxımdan hazırkı dövrə qədər siyasi elmdə və beynəlxalq münasibətlərin aktual problemlərinə həsr olunmuş əsərlərdə xüsusi tədqiqat obyekti olmamışdır. Məhz bu cəhət tədqiqatın məqsəd və vəzifələrini müəyyən etmiş, mövzunun tədqiqi zərurətini şərtləndirmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti Türk dünyasının inteqrasiyası prosesi, Azərbaycan-Türkiyə tərəfdaşlığı sahəsində hər iki dövlətin reallaşdırdığı siyasət və bu tərəfdaşlığın siyasi, iqtisadi, mədəni-humanitar və digər aspektləri, predmetini isə Türkdilli dövlətlərin inteqrasiyasını şərtləndirən amillər, bu prosesə özünün başlıca təsirini göstərən Azərbaycan-Türkiyə tərəfdaşlığının xüsusiyyətləri təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri**. Tədqiqatın başlıca məqsədi Türk dünyasının inteqrasiyasında Azərbaycan-Türkiyə tərəfdaşlığının rolunun siyasi, iqtisadi, mədəni və humanitar aspektlərdən araşdırılması, bu istiqamətdə hər iki dövlətin reallaşdırdığı xarici siyasət fəaliyyətinin tədqiq edilməsindən ibarətdir.

Bu məqsədə navil olmaq üçün aşağıdakı tədqiqat vəzifələri müəyyən olunaraq onların yerinə yetirilməsinə cəhd edilmişdir.

- Azərbaycan- Türkiyə əlaqələrinin inkişaf mərhələlərini və bu günədək baş verən hadisələrin xüsusiyyətlərini xarakterizə edərək öyrənilməsi;
- Azərbaycan -Türkiyə münasibətlərinin qurulması və inkişaf səviyyəsinin öyrənilməsi;
- Türk dünyasının inteqrasiyasında erməni faktorunun oynadığı rolun Azərbaycan-Türkiyə tərəfdaşlığına təsirinin öyrənilməsi;
- Türk dünyasının ortaq problemi kimi erməni məsələsinin Azərbaycan-Türkiyə əlaqələrindəki təsirinin və türklərin qətliamında ermənilərin dünya ölkələrini əks təbliğat və fəaliyyətləri ilə aldadaraq Azərbaycanı müxtəlif embarqolara məruz qoyması və işğalçı Ermənistanın işğala uğramış kimi özünü beynəlxalq münasibətlərə qoşulma siyasətinin tədqiqi;
- Türk dünyası ilə əlaqədar qurumların əhəmiyyətinin öyrənilməsi;
-Xəzərin hüquqi statusunda Azərbaycanın yerinin və strateji maraqlarının qorunmasında Türkiyənin rolunun və tərəflərin mövqelərinin təhlil edilməsi;
- İnteqrasiyanın iqtisadi, mədəni üstünlükləri və Türkiyənin bölgədə gücünün artmasında Azərbaycanın dəstəyi, tərəfdaşlıqdakı son mərhələnin və inteqrasiyanın səmərəliliyinin artırılmasında praktik tövsiyələrin verilməsi təşkil edir.

**Tədqiqatın nəzəri-metodoloji əsasları**. Tədqiqat işinin nəzəri əsasını ilk növbədə Ümummilli lider Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan və Türkiyə tərəfdaşlığı haqqında dəyərli ideyaları, tədqiqat probleminə dair konseptual fikirləri, eləcə də problemlə bağlı Azərbaycan və Türkiyənin, xarici ölkələrin tanınmış alimlərinin fundamental elmi tədqiqatları təşkil edir.

Dissertasiyanın məqsəd və vəzifələrini yerinə yetirmək üçün istifadə edilən mənbələrə obyektivlik və tarixilik prinsipi əsasında yanaşılmışdır. Tədqiqatın metodoloji bazasını problemə sistemli yanaşma əsasında siyasi elmin xüsusi elmi metodları, o cümlədən müqayisəli politoloji təhlil, ümummәntiqi metodlardan analiz və sintez, məntiqilik və tarixilik təşkil edir. İstifadə olunan çoxsaylı müasir ədəbiyyatın təhlilinə cəhd edilmişdir.

---

[5] Korkodyan Z. Sovet Ermənistanının əhalisi son yüz ildə (1831-1931). İrəvan 1932, s.174 Парсамян Ю. Вардан А. История армянского народа 1801-1900. Книга первая, Ереван: изд-во «Аястан», 1972, s.398.

[6] Qasımlı M. SSRİ-Türkiyə münasibətləri, I c., Bakı: Adiloğlu, 2007, 556 s ; Hasanlı C. Tərəfsizlikdən soyuq müharibəyə doğru Türk-sovet əlaqələri (1939-1953) / Tərcüməçi: Ali Asker. Ankara: Bilgi yayını, 2011, 544 s; Muxtarova Ə. Türk xalqları tarixi. Bakı: "Adiloğlu", 2013, 446 s; Əliyev Z., Türkdilli xalqların diasporları, Bakı:" Adiloğlu", 2009, 295 s

Bu yanaşmalar tarixi metod və müqayisəli təhlilə əsaslanmaqla, beynəlxalq münasibətlərin və diplomatiyanın ümumən qəbul olunmuş və xüsusi siyasi metodlarından istifadəni nəzərdə tutmuşdur. Mövzunun tədqiqinə belə elmlərarası yanaşma bizə ümumdünya inteqrasiya proseslərinin milli, regional və qlobal istiqamətlərini vəhdətdə, sıx əlaqədə nəzərdən keçirməyə imkan verir.

Uzun müddət ərzində tədqiq edilən mövzu ətrafında araşdırmalar ümumiləşdirilmiş və mövzuya müxtəlif mənbələrin baxış bucağı ilə yanaşı, müəllif tərəfindən şəxsən formalaşdırılan elmi nəticələr açıqlanmışdır. Tədqiqatda tarixi-müqayisəli araşdırma metodları əsasında türk dünyası ilə əlaqədar inteqrasiya mövzuları əsas məsələlər kimi sistemləşdirilmiş, müqayisəli təhlil üsulu ilə problemə türk dünyasının ortaq hərəkət etməsində Azərbaycan-Türkiyə tərəfdaşlığının digər türk dövlətlərinə nümunə təşkil etdiyini, onların ortaq erməni məsələsində sistemli addımlarına işıq tutmuşdur.

**Tədqiqatın elmi yeniliyi**. Dissertasiyanın elmi yeniliyi öz ifadəsini konkret olaraq aşağıdakılarda tapmışdır:

- Mövzu Azərbaycan siyasi elmində ilk dəfə olaraq tədqiq edilir.
- Türk dövlətlərinin xarici siyasət strategiyası və milli təhlükəsizlik konsepsiyasının işıqlandırılmasında ortaq problemlərin nəzərə alınaraq müəyyənləşməsinin vacibliyi əsaslandırılır və tövsiyələr verilir.
- Türk dünyası inteqrasiyasında Azərbaycan-Türkiyə tərəfdaşlığının fəaliyyətlərindəki ümumi cəhətləri müəyyənləşdirilir və təhlil edilir.
- Mövzu ilə bağlı ortaya çıxan sosial quruluşun Türk dünyasının inteqrasiyasında oynadığı rol obyektiv təhlil süzgəcindən keçirilir.

Xəzər dənizinin hüquqi statusu və maraqlı dövlətlərin geosiyasi rəqabət prosesində Azərbaycan-Türkiyə tərəfdaşlığının təhlili açıqlanır.

- Azərbaycan-Türkiyə tərəfdaşlığının rolunun artırılması üçün effektiv iş aparılmasının tənqidi baxışların ortadan qalxmasına təsir edəcəyi proqnozlaşdırılaraq araşdırılır.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti**. Tədqiqatın nəzəri-praktiki əhəmiyyəti ondan ibarətdir ki, əldə olunan nəticələr Türk dünyasının birliyində nəzərə alınmaqla müxtəlif ölkələrdə beynəlxalq təşkilatların fəaliyyətində, keçirilən simpozium və türk dünyası qurultayları və başqa tədbirlərdə istifadə edilə bilər. Alınan nəticələr həmçinin gələcəkdə bu mövzu ətrafında araşdırma aparan tədqiqatçılara, Türk dünyası araşdırma qurumlarına, mətbuat işçilərinə müəyyən istiqamət və daha fundamental tədqiqat əsərlərinin yazılması üçün əsas ola bilər. Tədqiqat işindən beynəlxalq münasibətlər üzrə mövzu ilə bağlı fənlərin tədrisində, habelə dərs vəsaiti, dərsliklərin hazırlanmasında da istifadə edilə bilər.

**İşin aprobasiyası.** Dissertasiya işi Bakı Dövlət Universitetinin "Diplomatiya və müasir inteqrasiya prosesləri" kafedrasında müzakirə edilmiş və müdafiəyə tövsiyə olunmuşdur.

Dissertasiya işinin əsas müddəaları və elmi nəticələri müəllifin BDU-nun aspirant və gənc tədqiqatçılarının elmi konfranslarındakı məruzələrində, habelə mövzu ilə bağlı Azərbaycanda və xaricdə çap etdirdiyi əsərlərdə öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu**. Dissertasiya giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı və elmi əhəmiyyəti əsaslandırılmış, tədqiqatın obyekti və predmeti, araşdırılma səviyyəsi müəyyən edilmiş, tədqiqatın nəzəri-metodoloji əsasları, məqsəd və vəzifələri təyin edilmiş, mənbəşünaslıq bazası, elmi yeniliyi və elmi-nəzəri və praktik əhəmiyyəti, işin aprobasiyası və quruluşu haqqında məlumat verilmişdir.

**Birinci fəsil "Türk dünyasının inteqrasiyası: Siyasi şərtləri, mahiyyəti və əhəmiyyəti "adlanır**. Bu fəslin yazılmasında məqsəd Azərbaycan-Türkiyə münasibətlərinin qurulmasında bu əlaqələrin inkişaf mərhələlərini və bu günədək qət edilən nöqtəni dəyərləndirə bilmək üçün təsiredici amillərin xüsusiyyətlərini xarakterizə etməkdir. Bunun üçün ilk növbədə **fəslin "Türkdilli dövlətlərin inteqrasiyasını şərtləndirən amillər"** adlanan **birinci yarımfəslində** hər iki dövlətin özəl və xüsusi əhəmiyyətə sahib və dünyada bənzəri olmayan ikili əlaqələrin mənəvi dəyərindən uzaq dəyərləndirmənin mənasız və yanlış olduğu əsaslandırılır. Azərbaycan-Türkiyə tərəfdaşlığı beynəlxalq platformada özünəməxsus xüsusiyyətlərə malikdir, iki dövlətin əlaqələri zaman və məkan amilindən yüksəkdə dayanan dəyərlərə əsaslanır. Türkdilli Dövlətlərin Dövlət Başçılarının Zirvəsi institutlaşaraq, Türk Şurası adını almış və təşkilatın Naxçıvan müqaviləsi ilə ortaya qoyduğu məqsəd və vəzifələr öz əksini tapmışdır. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Türk dünyası inteqrasiyasındakı əhəmiyyəti uzun vədəli əlaqələrdə özünü göstərəcəkdir və fəaliyyət mexanizminin analizi bunu sübut etməkdədir. Mövzudan

aydın görünür ki, Türk birliyi türkcə danışan toplumların bir arada olmasını, ortaq hərəkət etməsini, ortaq iqtisadi və siyasi qərarlar alınmasını ortaya qoyan bir elmi və siyasi düşüncə tərzidir.

Zirvə görüşləri Türk dünyası inteqrasiyasında mühüm rol oynayır. İşbirliyinin möhkəmlənməsi və Türk dünyası qurumlarının formalaşmasındakı rolu nəzərə alınaraq, **bu fəslin ikinci yarımfəsli "Türk dünyası inteqrasiyasında Türkdilli dövlətlərin zirvə toplantılarının yeri və rolu**" adlanır. Ona görə də, bu görüşlərin ayrı-ayrılıqda analizi bu baxımdan mühüm əhəmiyyət kəsb edir.

Eyni zamanda, Azərbaycan-Türkiyə əlaqələrinin mənəvi tərəfi qədər vacib olan digər istiqaməti isə ikili əlaqələrin qarşılıqlı çıxarlara xidmət edən praqmatik bir dayağa sahib olmasıdır. Hər nə qədər iki dövlət arasındakı əlaqələrdə qardaşlıq bağının qüvvətli olduğu bir gerçək olsa da, "bir millət, iki dövlət" şüarı ən yüksək səviyyədə dilə gətirilən bir həqiqət olsa da, Azərbaycanın Türkiyə, Türkiyənin də Azərbaycan üçün geopolitik, strateji və iqtisadi baxımdan əhəmiyyət kəsb etdiyi ortaya qoyulur.

Azərbaycan ilə Türkiyə arasında diplomatik əlaqələr 1992-ci ilin yanvar ayının 14-də quruldu. Həmin vaxt iki ölkə arasında ticarət, turizm, iqtisadiyyat, nəqliyyat, elm, media, hüquq, statistika, sənaye, mütəxəssis hazırlama və sərmayə, eləcə də digər sahələrdə əməkdaşlığın təməli qoyulmuşdur.

Bu tərəfdaşlığın inkişafı üçün iki dövlət arasında imzalanan müqavilələr mühüm əhəmiyyət kəsb edir. Azərbaycan-Türkiyə iqtisadi əlaqələri 1992-ci ildə imzalanan "Azərbaycan-Türkiyə Ticarət və İqtisadi İşbirliyi Müqaviləsi" və 1994-cü ildə imzalanan "Azərbaycan-Türkiyə Sərmayələrinin Qarşılıqlı Təşviqi və Qorunması" və "İkili Vergiləri Önləmə Müqaviləsi" ilə qurulmuş və hüquqi zəmin hazırlanmışdır.

1991-ci ildən günümüzədək Azərbaycan- Türkiyə inteqrasiyasını ümumi olaraq ələ aldıqda, yüksələn xətt ilə inkişaf etdiyini deyə bilərik. SSRİ-nin dağılma prosesində müxtəlif ölkələrdə yaşayan türkdilli azlıqların düçar olduğu zülmlərin gözardı edildiyi də bu paraqrafda yer almışdır. Əslində daha əvvəllər mövcud olan millətlər problemi də bununla əlaqədar ortaya qoyulmuşdur. "Türksüz Ermənistan" siyasətinin planlı şəkildə necə həyata keçirildiyi öz əksini tapmışdır.

Azərbaycan-Türkiyə əlaqələri zəngin tarixi mərhələnin nəticəsində inkişaf etmiş, hal-hazırda ortaq quruluşların qurulmasınadək bir nəticə əldə edilmişdir. Azərbaycan dövləti çox çətinliklərlə müstəqillik dövrünə qədəm qoydu və Azərbaycan-Türkiyə münasibətlərinin qurulması və inkişafında yeni mərhələ başladı. Türkiyə diplomatlarından ibarət heyətini ilk dəfə "Türk Respublikalarına" - Azərbaycana, Qırğızıstana, Özbəkistana, Qazaxıstana və Türkmənistana göndərdi. Artıq Türkiyənin siyasəti mərkəz ağırlıqlı yox, həm mərkəz, həm də respublikalar ağırlıqlı idi. Azərbaycan SSRİ-nin tərkibində olduğu dövrdə xarici siyasəti müstəqil olmamışdır. Ona görə də Azərbaycan - Türkiyə münasibətlərinə Sovet-Türkiyə münasibətlərinin bir parçası kimi yanaşılmışdır.

**Birinci fəslin üçüncü paraqrafı "Türk dünyası qurumları və onların əhəmiyyəti**" adlanır. Burada Türk dünyası inteqrasiyasında qurumların təşkilatlanma baxımından əhəmiyyəti öyrənilir. TürkPA-nın sahəsindəki işbirliyi siyasi, iqtisadi, mədəni və digər sahələrdə qarşılıqlı əlaqələri və inteqrasiya proseslərini əhatə edir. Eyni zamanda bu əlaqələri geniş şəkildə inkişaf etdirir. TürkPA üzvü olan xalqların daha da yaxınlaşmasında vacib bir vasitə kimi görülmüşdür. Təşkilatın məqsədləri də elə buna uyğun olaraq araşdırılmışdır. TürkPA ilə yanaşı, Türk dünyası inteqrasiyasında əhəmiyyətli yer tutan digər qurumlar da burada geniş şəkildə öz əksini tapmaqdadır. Mədəniyyət Nazirlərinin Daimi Şurası-TÜRKSOY, Texniki yardım təşkilatı-TİKA, Atatürk Mədəniyyət Mərkəzi, Yunus Əmrə Vəqfi, Türk dünyası İşçi qrupu, İstanbul İcra Hakimiyyəti səlahiyyətində 1993-cü ilin mart ayında qurulan Türk dünyası və Qohum topluluqlar Koordinatorluğu, Avrasiya Araşdırmalar Mərkəzi, Türk Dünyası Araşdırmaları mərkəzi kimi Türk dünyası inteqrasiyasında əhəmiyyət daşıyan qurumlar tədqiq edilmişdir. Bunların Türk dünyası arasındakı siyasi, sosial, iqtisadi, mədəni, humanitar, hüquqi, diplomatik əlaqələrin inkişafına və Azərbaycan-Türkiyə tərəfdaşlığına verdiyi töhvələr ortaya qoyulmuşdur.

TürkPA 21 noyabr 2008-ci ildə Türkiyə Respublikasının İstanbul şəhərindəki "Dolmabaxça Sarayı"nda Azərbaycan Respublikası, Qazaxıstan Respublikası, Qırğızıstan Respublikası və Türkiyə Respublikasının Milli Məclis sədrlərinin imzaladığı sənədə əsasən təsis edilmişdir. TürkPA üzvü olan xalqların daha da yaxınlaşmasında vacib bir vasitə kimi görülmüşdür.

Türkdilli ölkələrin Parlament Assambleyası müstəqillik, suverenlik, ərazi bütövlüyü və dövlət sərhədlərinin toxunulmazlığı, hüquq bərabərliyi, bir-birinin daxili işlərinə qarışmamaq prinsiplərinə hörmət bəslənilməsi, zor işlətməkdən və zor işlədiləcəyi ilə hədələnməkdən, iqtisadi və hər hansı digər təzyiq metodlarından imtina əsasında dövlətlərin siyasi və iqtisadi təhlükəsizliyinin möhkəmləndirilməsi, təbii ehtiyatlardan tam və səmərəli istifadə yolu ilə xalqların rifahının yüksəldilməsi, milli iqtisadiyyatların dinamik inkişaf etdirilməsi, parlament diplomatiyası sahəsində yeni uğurlara imza atılması, region və digər beynəlxalq aləmin üzvü olan ölkələrin parlamentləri və digər beynəlxalq

təşkilatlar ilə yeni əlaqələrin qurulması və mövcud əlaqələrin inkişaf etdirilməsini əsas məqsəd olaraq seçmişdir.

Bu məqsədlərin nələrdən ibarət olması və həyata keçirilməsindəki problemlər və ortadan qaldırılması yolları da tədqiqatçı tərəfindən tədqiq edilmişdir.

Türk dövlətlərinin mədəni inteqrasiyasının mühüm təməli olan və türkdilli ölkələrin Mədəniyyət Nazirlərinin Daimi Şurası-TÜRKSOY təşkilatının ortaya çıxmasında Azərbaycanın Türk dünyasına göstərdiyi diqqətin rolu danılmazdır.

Təşkilata bu adın verilməsi 1992-ci ilin dekabrında Bakı şəhərində həyata keçirilmişdir və 1992-ci ilin fevral ayından Ankarada fəaliyyət göstərir.

Türkiyə Respublikası, Azərbaycan Respublikası, Qırğızıstan Respublikası, Özbəkistan Respublikası, Türkmənistan Respublikası, Qazaxıstan Respublikası Mədəniyyət Nazirləri İstanbul, Bakı, Almata, Marmaris, Bişkek, Aşqabad, Ankara toplantıları ilə bir araya gələrək suverenlik, ərazi bütövlüyü, qarşılıqlı bərabərlik prinsiplərini rəhbər tutaraq 12 iyul 1993-cü ildə Qazaxıstanın paytaxtında bir Mədəniyyət Müqaviləsi imzalamışlar. Bu müqavilə ilə də türkdilli ölkələrin Mədəniyyət Nazirlərinin Daimi Şurası (Türk Kültür və Sənətləri Ortaq Yönetimini) (TÜRKSOY) qurmuşlar. Bu təşkilata Şimali Kipr Türk Respublikası, Başqırdıstan Respublikası və Tatarıstan Respublikası Mədəniyyət nazirləri də qatılmışdır.

TURKSOY-un quruluş məqsədi – türkdilli ölkələr və topluluqlar arasında mədəni əlaqələri artırmaq, türk mədəniyyətini araşdırmaq, inkişaf etdirmək, qorumaq, bütün dünyaya tanıtmaq və dünya mədəniyyəti ilə qaynaşdırmaqdır.

Texniki yardım təşkilatı TİKA-nın quruluşu və hansı məqsədlərlə qurulması tədqiq edilmiş və qloballaşan dünyada Türk dünyası inteqrasiyasındakı rolu araşdırılmışdır. Bunlarla birlikdə inkişaf etməkdə olan ölkələr və topluluqlara Müstəqil Dövlət quruluşlarının inkişaf etdirilməsi, bürokratik qaydaların hazırlanması, dövlət adamlarının hazırlanması, bazar iqtisadiyyatına keçid üçün lazımi köməkliklərin həyata keçməsi və bu ölkələrə mütəxəssis göndərilməsi, eləcə də üzv edilən ölkələrdən gələn kadr və tələbələrə təhsil və staj verilməsi, təqaüdlə təmini üçün lazım olan işləri həyata keçirmək, və.s baxımdan vacibliyi araşdırılmışdır.

**İkinci fəsil "Türk dünyası inteqrasiyasında Azərbaycan-Türkiyə tərəfdaşlığının siyasi aspektləri**" adlanır. Burada, dünyanın müxtəlif ölkələrində, o cümlədən türk dövlətlərarası münasibətlərin müxtəlif sahələrini əhatə edən inteqrasiya prosesləri müasir beynəlxalq münasibətlərin xarakterik cəhəti kimi öyrənilir. Türk dünyası inteqrasiyasının Azərbaycan-Türkiyə tərəfdaşlığının öz başlanğıcını əməkdaşlıqdan götürməsi də nəzəri olaraq, buradan aydın görünür. Bu əməkdaşlığın ali məqsədi beynəlxalq sülhü və təhlükəsizliyi təmin etmək, insan hüquq və azadlıqlarına yeni töhfələr vermək prinsipi üzərində təkamül edir. Belə bir inteqrasiyada Azərbaycan-Türkiyə tərəfdaşlığı tarixi köklərə və ənənələrə malik olmaqla, qarşılıqlı fayda əsasında ictimai-siyasi həyatın bütün sahələrini əhatə edir. Hər iki dövlət həm strateji portnyordurlar, həm də strateji müttəfiqdirlər. Məqsəd, Azərbaycan-Türkiyə münasibətlərinin qurulmasında qloballaşan dünyada əməkdaşlıq formaları, beynəlxalq münasibətlər sistemi və ikitərəfli münasibətlərdə hər iki dövlətin tərəfdaşlığını ortaya qoymaqdır. Bu tərəfdaşlığın Beynəlxalq münasibətlərdəki yerini müəyyən etməkdir. Tədqiqatçı elmi işin yazılmasının gedişində aparılan araşdırmalar əsasında iki dövlətin əlaqələrini və qurulan münasibətlərinin əsasını müəyyən etmiş və fəslin üç paraqrafında bu əsasları ayrı-ayrılıqda elmi-fundamental şəkildə analiz etmişdir. Burada başlıca diqqəti çağdaş dünya düzənində və beynəlxalq münasibətlərdə Azərbaycan-Türkiyə əməkdaşlığının müxtəlif aspektlərinin tədqiqatına yönəltmişdir. Problem müəyyən təsnifatlaşdırma və sistemli yanaşma əsasında araşdırılmışdır. Belə ki, **fəslin ilk yarımfəsli** "**Azərbaycan - Türkiyə münasibətlərinin formalaşması və inkişafına siyasi-nəzəri baxış"** adlandırılaraq, qloballaşan dünyada əməkdaşlıq formaları baxımından bu əlaqələrə aydınlıq gətirilmişdir. Burada hər iki dövlətin tərəfdaşlığını beynəlxalq münasibətlər sistemində necə qurmasından bəhs edir. İki ölkənin təhlükəsizlik strategiyasının eyni olması əngəllərin ortadan qalxmasında mühüm rol oynayır və münasibətlərin bərabərlik prinsipinə əsaslanmasını ortaya qoyur.

Türkiyə ilə Azərbaycan arasındakı əlaqələrin, hər iki tərəfin azad iradəsi ilə təsis edildiyi gerçəkliyini ortaya qoyur. Hər iki dövlətə yaradılan süni maneələr isə onun əməkdaşlığına nəinki əngəl törədir, hətta bu əlaqələrdə daha çox əməkdaşlığı məcburi edir.

**İkinci fəslin ikinci yarımfəslində** "**Xəzərin hüquqi statusu və Türkdilli dövlətlərin mövqeyi**" araşdırılır. Azərbaycanın hidropolitik sahədəki mövqeyi öyrənilir və müasir beynəlxalq münasibətlərdə Türk dünyası ölkələrinin hidropolitik əməkdaşlığın perspektivləri nəzərdən keçirilərək, Türk dövlətləri arasındakı hidropolitik münasibətlərin bugünkü səviyyəsi araşdırılmışdır və tədqiqatçı tərəfindən gələcək inkişaf templəri proqnozlaşdırılmışdır.

SSRİ-nin dağılmasından sonra Xəzər Dənizi ətrafında beş dövlət ortaya çıxmışdır. Rusiya, İran, Azərbaycan, Türkmənistan və Qazaxıstan. Ancaq Xəzərin hüquqi statusu ABŞ, Türkiyə və digər dövlətləri də yaxından maraqlandırmışdır. Türk dövlətləri arasında hidropolitik sahədəki strateji siyasətin formalaşmadığına baxmayaraq, Azərbaycan-Türkiyə tərəfdaşlığının bu sahədəki münasibətlərinin digər Türk dövlətlərinə də təsir edəcəyi və inteqrasiyanı gücləndirəcəyi, bu sahədəki proseslər araşdırılmışdır.

SSRİ-nin varisi olan Türk dövlətləri Azərbaycan, Qazaxıstan, Türkmənistan "qazanılmış haqlar"-a əsasən, Xəzəri digər dənizlərə bağlayan boğazlardan tranzit keçiş haqqına sahibdirlər. Xəzər dəniz statusuna sahib olmasa da, varis dövlətlər üçün beynəlxalq hüquq baxımından belə qəbul edilir.

Türkiyənin Cənubi Qafqaz siyasəti hər zaman Azərbaycanla tərəfdaşlıq siyasəti çərçivəsində aparılmışdır. ABŞ da Türkiyənin strateji ortağıdır. Bu iki səbəbin təsiri ilə Türkiyə Xəzər Dənizinin hüquqi statusunda qərarlı mövqe tutmuşdur.

Hidropolitik sahədə də Azərbaycan - Türkiyə tərəfdaşlığı "Türkiyənin "Böyük Dövlət"olmasına təkan verəcəkdir. Bunun Azərbaycanın təhlükəsizliyi baxımından vacib olduğu danılmazdır. Ona görə də hidropolitik sahədə də hər iki dövlətin ortaq strateji maraqlarını təmin etmək üçün bu sahədə də ortaq qurumun formalaşmasına böyük ehtiyac olduğu proqnozlaşdırılır.

İki dövlət arasındakı əlaqələr geopolitik, geoiqtisadi, geo-strateji təməllər üzərində qurulmuşdur. Bu yarımfəsildə deyilən təməllər əsaslandırılır və bu geopolitik coğrafiyada dünyanın bir çox dövlətlərinin mənfəətləri toqquşur. Dünyanın geopolitik araşdırmalarında Sovetdən sonrakı Türk respublikalarından Azərbaycan, Qazaxıstan və Özbəkistan da geopolitik mərkəz kimi qeyd olunur. Türk respublikaları ilə Türkiyə arasındakı məhsuldar münasibətlərin xxı əsrin bütün beynəlxalq siyasi tarazlığına təsir göstərəcək potensiala malik olduğundan bəhs edilir. ABŞ-ın Cənubi Qafqaz siyasəti də Türkiyənin təsirini şərtləndirir.

**İkinci fəslin sonuncu yarımfəsli "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Türk dünyası inteqrasiyasına təsiri"** adlanır. Erməni məsələsinin hər iki dövlətin ortaq problemi olduğu əsaslandırılır. Ermənilərin Azərbaycan və Anadolu türkünü bir-birindən ayırmadığı və ortaq düşməni olaraq gördüyü, buna baxmayaraq, bu cür məsələlərdə hər iki dövlətin əvvəlcədən məsləhətləşmədən atacaqları addımın düzgün nəticə verməyəcəyinin də fundamental əsasları araşdırılmışdır. Yüksək Səviyyəli Strateji Tərəfdaşlıq Şurasının yaradılmasının hər iki dövlətin bütün sahələrini əhatə etməsinin zəruriliyi, strateji tərəfdaşlığın gələcək inkişafını müəyyən etməsinin izahı verilir. Bu Şuranın qurulmasının Ermənistana və onun işğalçılıq siyasətini dəstəkləyənlərə qarşı adi bir müqavilə olmadığı göstərilir. Şuranın Azərbaycan-Türkiyə inteqrasiyasını gücləndirəcəyi və inkişaf etdirəcəyi ilə nəticələnə bilər. Tədqiqatçı hər iki dövlətə süni əngəl kimi Ermənistan faktorunun müxtəlif dövlətlər tərəfindən düşünülmüş şəkildə ortaya atıldığını, Türk dünyası inteqrasiyasında erməni məsələsinə daha geniş yer ayırma zəruriliyini ortaya qoymuşdur. Terrorun erməni sosyal quruluşunun bir parçası olduğu əsaslandırılmışdır. Düzgün olaraq, fikirlərini erməni yazıçılarının öz ifadələri ilə sübut etmişdir. Bununla da Azərbaycan-Türkiyə tərəfdaşlığının revizyonizmə qarşı həmişə statikoçu mövqedə olduqlarını geniş faktlarla əsaslandırmışdır. Azərbaycan ilə Türkiyə arasında gərginliyin ortaya çıxması erməni diasporalarının əsas məqsədləridir. Azərbaycanla Türkiyənin münasibətlərinin pozulması Ermənistan üçün ən vacib təhlükənin ortadan qalxması deməkdir. Digər tərəfdən, Türkiyə-Ermənistan arasında imzalanmasına baxmayaraq, nəticəsiz qalacağı əvvəlcədən müəyyən edilən məlum protokolların imzalanması da bu amala xidmət etmək məqsədi daşıyırdı.

Ermənistan dövlətinin Azərbaycanın 33 inzibati rayonu və 15 mahalı üzərində qurulmasına baxmayaraq, illərə görə əhali sayına nəzər salsaq, vaxtilə orada az sayda olan ermənilər hazırda nəinki buralara sahib çıxmış, hətta Azərbaycanın ərazilərini işğal etmiş və orada bir nəfər belə türk qalmamışdır. Bolqarıstan türkləri də Qərbi Azərbaycan türkləri kimi, eyni haqsızlığa məruz qalmış, Ahıska türkləri də dünyanın müxtəlif ölkələrinə köç etmək məcburiyyətində qalmışlar. Ancaq bunlara baxmayaraq, bu günə kimi insan haqlarından məhrum olan və köçlə qarşı-qarşıya qalan türklərlə əlaqədar Türk dövlətlərinin ortaq bir qurumunun formalaşmaması isə təəssüf doğurur.

Tarixdə ermənilərin "Böyük Ermənistan" qurma planları müxtəlif partiya və onlarla terror təşkilatlarının fəaliyyəti proqramlarında başlıca məqsədi təşkil etmişdir. Buna görə də ermənilərin təkcə Azərbaycandan yox, həm də Türkiyə və Gürcüstandan torpaq iddialarına da diqqət çəkmişdir.

Bu plan günümüzdə də davam edir və haqlı olaraq, tədqiqatçı mövzuya tarixi mərhələlər baxımından yanaşmışdır. Hınçaq, Daşnaksutyun, Fedai Hərəkatı, Nemses qrupu, Ramqavar, ASALA təşkilatları və s. məqsəd və fəaliyyət prinsiplərini araşdıraraq, erməni məsələsinin təkcə Azərbaycanın problemi olmadığını, bunun həm də Türk dünyasının, xüsusilə də Azərbaycan-Türkiyə tərəfdaşlığı ilə həll edilə biləcəyini izah etmişdir.

Tədqiqatçı illərə görə indiki Ermənistan ərazilərindəki əhali sayını erməni və tərəfdarlarının əsərləri ilə ortaya qoymuş, riyazi rəqəmlərlə əsaslandırmış və türklərə qarşı törədilən soyqırımı da bu metodla sübut etmişdir. SSRİ zamanında Ermənistan və Qarabağ ərazisindəki etnik təmizləmə və soyqırımın, "Dəmir pərdə" səbəbi ilə dünya tərəfindən hələ də bilinmədiyi tutarlı faktlar və sübutlarla ortaya qoyulmuşdur.

Ermənilərin işğala uğrayan Azərbaycanı işğalçı kimi göstərə bilmə fəaliyyətinə Azərbaycan-Türkiyə münasibətlərinin düzgün qurulması əngəl ola bilmişdir. XX əsrin dəhşətli və amansız soyqırımı olan, Xocalı Soyqırımını da törətmələrinə baxmayaraq, Azərbaycana tətbiq edilən embarqolarda rol oynaya bilmişlər. Bu baxımdan, Azərbaycan-Türkiyə lobbiçilik fəaliyyətində "Vahid Dövlət Siyasəti"ortaya qoymalıdır

Qarabağ problemi SSRİ-nin dağılmasından daha əvvəl başlamış və birliyin dağılmasından sonra isə müstəqil dövlətlərarası qarşıdurmaya çevrilmişdir. Bu qarşıdurma zamanı erməni terror dəstələri və muzdlu əsgərlər tərəfindən Azərbaycanın 20%-i işğal edilmiş, 1 milyon Azərbaycan vətəndaşı qaçqın və köçkün vəziyyətə düşürülmüşdür. Bu prosesdən əvvəl isə, Azərbaycanın 40 nəfərlik heyəti vertolyotla Xankəndinə gedərkən, rusların planı ilə erməni terroristlər tərəfindən vuruldu. Dövlət terroru həyata keçirildikdən sonra Azərbaycan xalqının müdafiəçiləri öldürülmüş və hakimiyyətdə rusların sözündən çıxa bilməyəcək insanlar dəstəklənmişdir.

Dünya ölkələri unutmamalıdırlar ki, indiki Ermənistanda vaxtilə erməni olmamışdır. 1804-cü ildə orada yaşayan 1% erməni rusların 1801-ci ildə Lori-Pəmbək ərazisinə daxil olmasından qısa zaman sonra baş tutmuşdur və indiki paytaxt İrəvanın ermənilərə tərəfimizdən verildiyi 3N-li protokol vasitəsilə sübut olunub. Elə isə, ermənilərin türklərə verdiyi hər hansı bir ərazi varsa, bunun sənədini təqdim etsinlər. Dağlıq Qarabağda ermənilər yaşayırsa, Qərbi azərbaycanlıların da indiki Ermənistanda yaşaması İnsan Haqları Deklarasiyasına daxil olan ən təbii hüquqlarıdır. Azərbaycan-Türkiyə tərəfdaşlığı da insan haqlarına, sülhün bərqərar olmasına zəmin yaradır.

Baskın Oran yazır ki, "Türkiyə Azərbaycanın mövqeyini dəstəkləyərək, Azərbaycanın Ermənistana tətbiq etdiyi embarqoya dəstək verdi". Müəllif, erməni mənşəli Türkiyə vətəndaşlarının Azərbaycan-Türkiyə tərəfdaşlığının dostluq çərçivəsində inteqrasiyasına əngəl olma fəaliyyətlərinə də diqqət çəkmişdir.

Tədqiqatın **üçüncü fəsli "Türk dünyası inteqrasiyası çərçivəsində Azərbaycan-Türkiyə tərəfdaşlığında iqtisadi və humanitar amillər**" adlanır. Bu fəsil, iki yarımfəsildən ibarətdir. "**Azərbaycan-Türkiyə enerji tərəfdaşlığının Türk dünyası inteqrasiyasında rolu**" adlanan **birinci yarımfəsildə** iqtisadi münasibətlərin inkişaf etdirilməsi ilə əlaqədar müddəaların zaman keçdikcə daha da reallaşması bu yarımfəsildə öz əksini tapır.

Hər iki dövlətdə mülkiyyətlə əlaqədar işbirliyində yeni mərhələyə keçilməsinin problemləri və bu problemlərin həllinin inteqrasiyanı gücləndirəcəyi də ifadə edilmişdir. Hər iki dövlətin arasında həll edilməmiş məsələlərdən biri kimi, Türkiyə vətəndaşlarına vizanın ləğv edilməməsində Azərbaycan hökumətinin haqlı gördüyü səbəblər bu günə qədər Türkiyə ictimaiyyətinə düzgün çatdırılmamışdır.

Azərbaycanın iqtisadi gücünün artması Türkiyə ilə olan tərəfdaşlığına öz müsbət təsirini vermişdir. Məhz bunlar göstərir ki, iki dövlət arasında Strateji Əməkdaşlıq Şurası daha böyük nəticələr əldə edəcəkdir. Tədqiqatdan da göründüyü kimi, əlaqələr bütün sahələrdə inkişaf etmişdir və edəcəkdir. Bu məsələ incə xətlərlə bu yarımfəsildə ortaya qoyulmuşdur.

Bu plana layihələrin həyata keçirilməsi Azərbaycan və Türkiyənin təkcə qaz nəqlində tranzit ölkə olmasına yox, həm də Türk dünyası inteqrasiyasında iqtisadi vəziyyətin yaxşılaşdırılmasına xidmət edəcəkdir.

Təşkilati strukturdan asılı olmayaraq bütün dövlətlər ən başda təhlükəsizliklərini təmin etməyə çalışırlar. Azərbaycanın xarici siyasətində də bunu görürük. Azərbaycan hökuməti müstəqilliyini, ərazi torpaq bütövlüyünü qoruma mübarizəsi aparır. Erməni təcavüzünə qarşı diplomatiyadan müharibəyədək variantların üzərində dayanması təhlükəsizliyin dövlətimiz üçün həyati mahiyyətini ortaya qoyur. Türkiyənin də regionda əsas strategiyalarından biri təhlükəsizliyin təmin edilməsi və hərbi-siyasi maraqlarıdır.

Azərbaycanın enerji sahəsində Türkiyəyə vermiş olduğu üstünlük nəticəsində Şərq-Qərb dəhlizi olaraq Türkiyənin yer alması, onun "Orta Böyüklükdəki Dövlət" siyasətindən "Böyük Dövlət Siyasətinə" addımında mühüm rol olmuşdur. Bu siyasətində Azərbaycan Türkiyəyə öz qayğısını əsirgəməməklə istisna rol oynamışdır.

**İkinci yarımfəsil "Azərbaycan-Türkiyə humanitar tərəfdaşlığının Türk dünyası inteqrasiyasına təsiri**" adlanır. Burada, iki ölkə arasında hərbi, mədəni, ticarət, turizm, iqtisadiyyat, nəqliyyat, elm,

media, hüquq, statistika, sənaye, mütəxəssis hazırlama, sərmayə, eləcə də digər sahələrdə əməkdaşlığın təməlinin qoyulması və inkişafı, bunun da Türk dünyası inteqrasiyasına təsiri araşdırılmışdır.

Hərbi sahədəki əməkdaşlıq da bundan geri qalmır. Bunlara baxmayaraq „Strateji Ortaqlıq və Müdafiə Müqaviləsinin" imzalanmamasının ciddi bir çatışmazlıq olduğu qeyd edilmişdir. Rusiya-Ermənistan işbirliyi nə qədər "Azərbaycan və Türkiyə əleyhinə deyil"sə, Azərbaycan-Türkiyə işbirliyi də ən az bir o qədər Rusiya tərəfindən təhdid olaraq görülməməlidir.

Azərbaycan-Türkiyə arasındakı ticarət həcminin getdikcə böyüməsi, Türkiyənin Azərbaycanda fəaliyyət göstərən maliyyə və digər sahədəki inkişafı və artımı digər türk dövlətlərinə nəzərən daha çox diqqəti cəlb edir. Tədqiqatçı əsaslı faktlarla Azərbaycan-Türkiyə tərəfdaşlığının getdikcə inkişafını və Türk dünyasındakı lokomativ rolu oynadığını əsaslı faktlarla sübut etmişdir.

**Nəticədə** tədqiqata yekun vurulmuş, ümumiləşdirmələr aparılmış, Türk dünyasının inteqrasiya proseslərində Azərbaycan-Türkiyə tərəfdaşlığının yeri və roluna dair praktik xarakterli tövsiyələr irəli sürülmüşdür. Müəllif belə nəticəyə gəlmişdir ki, Türk dünyasının inteqrasiyasında Azərbaycan-Türkiyə tərəfdaşlığı digər türk dövlətlərinə nümunədir.

**Dissertasiyanın əsas məzmunu müəllifin çap olunmuş aşağıdakı elmi məqalələrində öz əksini tapmışdır.**

1. Hidropolitik sahədə Azərbaycan-Gürcüstan-Türkiyə əlaqələri, Ankara: "Orun", 2002.228 s.
2. SSRİ dövründə Türkiyə-Azərbaycan əlaqələri və erməni terrorunun siyasi taktikası // Abay adına Qazaxıstan Milli Pedaqoji Universiteti jurnalı, Alma-Ata, 2011, s.85-90.
3. Azərbaycana tətbiq edilən embarqoya erməni lobbisinin təsiri // Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə, Sosiologiya və Hüquq jurnalı, № 1 (16), Bakı, 2011, s.287-290.
4. Türk dili danışan ölkələrin Parlament Assambleyası təşkilatlanma örnəyi kimi // Tarix və onun problemləri, Nəzəri-elmi-metodik jurnal № 2, Bakı, 2011, s.105-109.
5. Xəzər dənizinin hüquqi statusu mövzusunda türk dövlətləri və digər ölkələrin siyasi mövqeyi // Tarix və onun problemləri, nəzəri-elmi-metodik jurnal № 3, Bakı, 2011, s.224-230.
6. Türk azlıqlar: Xalq Cümhuriyyəti dövründən günümüzədək // Bakı Universiteti Xəbərləri, Humanitar elmlər seriyası, № 3, Bakı, 2011, s.204-209.
7. SSRİ-nin dağılmasından sonra Azərbaycan-Türkiyə tərəfdaşlığı və Ermənistan faktoru / BDU Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsi. Elmi-praktik konfransın materialları, Bakı, 2012, s.158-163
8. İkinci Dünya Müharibəsindən sonra Kosova türkləri // "Dirçəliş XXI əsr", Bakı, 2012, s.385-392.
9. Erməni məsələsi türk dünyasının ortaq problemi kimi // Qafqaz Strateji Araşdırmaları Mərkəzi, Ankara, 2012, s.1-5.
10. Azərbaycan-Türkiyə münasibətlərinin qurulması// Qafqaz Strateji Araşdırmaları Mərkəzi, Ankara, 2013, s.1-5
11. Türk dünyası qurumları və bu qurumların əhəmiyyəti // Bakı Avrasiya Universiteti Sivilizasiya elmi-nəzəri jurnal №7 , Bakı 2015, s120-126.
12. Azərbaycan-Ukrayna münasibətləri münaqişələr kontekstində //Bakı Avrasiya Universiteti Sivilizasiya elmi-nəzəri jurnal №10 , Bakı 2015 s.170-178.
13. Ermənilərin Qərbi Azərbaycan türklərinə qarşı soyqırımı // Bakı Avrasiya Universiteti Sivilizasiya elmi-nəzəri jurnal 3-cü buraxılış (27) , Bakı 2016 s.137-144.
14. Ermənilərin soyqırım yalanları / Tarix və onun problemləri, nəzəri-elmi-metodik jurnal № 2, Bakı, 2016, s.153-156.
15. Erməni soyqırımı yox, ermənilərin törətdiyi soyqırım / III Beynəlxalq Türk Dünyası Araşdırmaları Simpoziumunun materialları, III cild, Bakı, 25-27 may 2016, s.285-288.

**Парвиз Габиб оглу Самедов**

**Роль азербайджано-турецкого партнерства в интеграции тюркского мира**

**Резюме**

Диссертационная работа состоит из введения, трех глав, заключения и списка использованной литературы. Во введении обосновываются актуальность темы, цель и задачи, теоретико-методологические основы, научная новизна, теоретическая и практическая значимость исследования, а также приводятся сведения о его апробации и структуре.

В первой главе - «Интеграция тюркского мира: политические условия, сущность и значения» исследуются вопросы, об установлении азербайджано-турецких связей на пути к обретению независимости, об условиях и факторах интеграции тюркоязычных государств. Здесь говорится о важности и роли Высших собраний тюркоязычных народов. Исследуются органы тюркоязычныго мира, которые способствуют развитию его интеграции, а также их важность и роль этих органов в данном процессе.

Во второй главе - «Аспекты азербайджано-турецкого партнёрства в интеграции тюркского мира» говорится о принципе равноправия, на котором основывается система международных отношений азербайджано-турецкого партнёрства» исследуются формирование азербайджано-турецких отношений и их развитие, а также особый статус Каспийского моря и позиции тюркоязычных государств по этому вопросу. В данной главе изучаются и основные черты стратегии безопасности обоих государств, которые играют роль в устранении преград, объясняется позиция тюркоязычных государств в гидрополитической сфере вопроса.

Третья глава называется: Экономические и гуманитарные факторы азербайджано-турецких отношений в рамках тюркского мира». В данной главе исследуется роль азербайджано-турецкого партнёрства в сфере энергетики в интеграции тюркского мира. Изучается роль Азербайджана в правращении Турции в энергетического коридора «Восток-Запад», Азербайджано-турецкая гуманитарная помощь и её перспективы, а также влияние на тюркский мир.

В заключительной части, обобщаются полученные результаты, на этой основе выдвигаются рекомендации практического характера. При этом автор приходит к выводу, что азербайджано-турецкое партнёрство является примером для других тюркских государств.

**Parviz Habib Samadov**

**The role of the Azerbaijani-Turkish partnership in the integration of the Turkic world**

**Summary**

The dissertational work consists of an introduction, three chapters, conclusion and bibliography. In the introduction part the actuality, object and subject of the theme, purpose and principles of methodological problems, scientific novelty, the theoretical and practical importance of research, and as well as approbation and structure of the work have been referred.

The first chapter, "The integration of the Turkic world: political conditions, the nature and value", examines the issues as establishing of partnership of Azerbaijan and Turkey on the way to independence, the factors contributing to the integration of Turkic-speaking countries. The chapter states about the importance and role of the Supreme Assembly of Turkic-speaking peoples, the authorities of Turkic world, who contribute to the development of its integration, as well as their importance and role of these bodies in the process.

The second chapter, “The aspects of the Azerbaijani-Turkish partnership in the integration of the Turkic world", mentions the Azerbaijan-Turkey partnership is based on the principle of equality in the international relations system, explores the formation of the Azerbaijani-Turkish relations and their development, as well as the special status of the Caspian Sea and the position of the Turkish-speaking States on this issue. This chapter examines the main features and security strategies of both countries, which play a role in removing barriers, explains the position of Turkic-speaking countries in the hydro-political field.

The third chapter is called “The economic and humanitarian factors of the Azerbaijani-Turkish relations in the framework of the Turkic world". This chapter studies the role of the energy partnership between Azerbaijan and Turkey in the integration of the Turkish community. It states the role of Azerbaijan to support Turkey of being the East-West energy corridor, also the prospects for humanitarian cooperation between Azerbaijan and Turkey, as well as the impact of the Turkish world.

The final part summarizes the results, puts forward practical recommendations on this basis. The author concludes that the Azerbaijani-Turkish partnership is an example for other Turkic states.

Format: 60x84 1/16. Tiraj 50. Sifariş № 75

DİA-nın mətbəəsi

**АКАДЕМИЯ ГОСУДАРСТВЕННОГО УПРАВЛЕНИЯ ПРИ ПРЕЗИДЕНТЕ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

*На правах рукописи*

**ПАРВИЗ ГАБИБ ОГЛЫ САМЕДОВ**

# РОЛЬ АЗЕРБАЙДЖАНО-ТУРЕЦКОГО ПАРТНЕРСТВА В ИНТЕГРАЦИИ ТЮРКСКОГО МИРА

**Специальность: 5901.01 – "Международные отношения”**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени доктора философии по политическим наукам**

**БАКУ -2016**